BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2013*

# METODİKA

**UOT 81:372.881**

## ALİ HƏRBİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİ ZAMANI TƏLİMİN LİNQVİSTİK VƏ PSİXOLOJİ ƏSASLAR KONTEKSTİNDƏ HƏYATA KEÇİRİLMƏSİ

**M.F.MƏMMƏDOVA**
***DSX Akademiyası***
***minavarmamedova@mail.ru***

*Məqalə ali hərbi təhsil müəssisələrində kursantların ingilis dilində bacarıq və vərdişlərini inkişaf etdirmək məqsədilə təlimin linqvo-didaktik əsaslarla keçirilməsinə həsr olunmuşdur.*

**Açar sözlər:** Mədəni dəyərlər, hərbi-psixoloji keyfiyyətlər, tədrisin linqvo-didaktik əsasları, kommunikasiya vasitələri, kombinasiya, reproduksiya, konstruksiya, transformasiya, bilinqvizm

Ölkəmizin bütün ali məktəblərində olduğu kimi, ali hərbi məktəblərimizin də qarşısında qoyulan ən mühüm tələblərdən biri müasir dövrün tələblərinə cavab verə bilən ziyalılar-zabitlər hazırlamaqdan ibarətdir. Bu mənada, ali hərbi məktəblərimizin məzunları olan zabitlər də ziyalıdır və onlar ziyalılığın bütün tələblərini ödəməlidir.

Müasir təhsilin əsas məqsədi mürəkkəb sosio-mədəni məkanda müstəqil davranmağı, düzgün istiqamət almaği, müasir çoxmədəniyyətli dünyada yaşamağı və qarşılıqlı ünsiyyətə girməyi, əcnəbi mədəni mövqe və dəyərləri dərk etməyi və qəbul etməyi, bütün mədəniyyətləri bərabər dəyərləndirməyi və eyni zamanda hər bir mədəniyyətə xas olan fərqli cəhətləri görməyi, unikallığını etiraf etməyi, nəhayət öz mədəni dəyərlər sisteminə sahib çıxmağı bacaran şəxsiyyətlərin yetişdirilməsi olmalıdır. Bu keyfiyyətlərin mövcudluğu kursantların hərbi-psixoloji keyfiyyətlərinin formalaşmasında mühüm bir amildir.

Son zamanlar alimlər kommunikasiya vasitələrinin müsbət xüsusiyyətlərinə şübhə ilə yanaşırlarsa, qeyd etmək lazımdır ki, kommunıkasiya prosesləri informasiyanın ötürülmə və onun adekvat qavranılması ilə bağlıdır. Psixolinqvistikaya görə dil danışanın və dinləyənin, yazanın və oxuyanın daxili

dünyası qədər mövcud bir faktordur. Psixolinqvistika nitqin yaranması, daxili nitqin növləri, nitqin qavranılması, dilin antogenez, anadangəlmə və qazanılmış dil qabiliyyətini, doğma və xarici dilin öyrənilməsində yaranan fərqlər, fəaliyyət, ünsiyyət, kommunikasiya və s. sahələri öyrənir [1, 159].

Dilçilər kimi, psixoloqlar da bilinqvizmin, yəni iki dildə alınan məlumatın və nitq təbiətinin dərk edilməsində nəzəri biliklərin daha da inkişaf etməsini qeyd edirlər. Aparılan tədqiqatlar bir daha təsdiq edir ki, dil təfəkkürlü ifadə vasitəsidir, digər tərəfdən də dil təfəkkürə təsir edərək, onu bilinqvizmə doğru formalaşdırır. Bu kimi məsələlərin əsasında kommunikasiya dayanır (2, 255). Xarici dilin öyrənilməsində yaş məhdudiyyəti yoxdur. Bilinqvizmdə isə, yaş psixologiyası, dilin öyrənilməsində modelləşmə, dil mənsubiyyəti, milli mədəniyyət tipi, cinsi və s. kimi məsələlər nəzərə alınmalıdır. Bu xüsusiyyətlərin vacibliyi fərdlərin sağ və sol yarımkürəlilər asimmetriyası ilə bağlıdır. Son zamanlar məhz bu kimi məsələlər xüsusi olaraq tədqiq olunmuş və geniş müzakirə obyektinə çevrilmişdir.

Bu da psixolinqvistikanın, koqnitiv linqvistikanın öyrənilməsinə yeni qapı açır. Bilinqvizmin mənimsənilməsində və tədqiqində əqli proseslərin öyrənilməsi xüsusi diqqət çəkir. Bu sahədə araşdırmalar çox azlıq təşkil edir.

Qeyd etmək lazımdır ki, nitq prosesi təkcə filoloji deyil, həm də psixoloji faktordur. Ünsiyyətdə olduğumuz insanın nitqinə fikir versək, həmin insanın xarakteri, onun düşüncəsi haqqında fikir söyləmək olar. Burada əsas rolu infokasiya və intonasiyanın modelləri oynayır.

Yeni dilin öyrənilməsi təfəkkürün formalaşması, yeni bir ictimai-siyasi aləmə səyahət, yeni bir mədəniyyətə, dil və mental arasındakı prosesə, bu və ya digər məsələlərin dərk olunması, dillə bağlı psixolinqvistik məsələlərin araşdırılmasına zəmin yaradır.

Nitqin yaranması prosesini tədqiqatçılar müxtəıif psixoloji və neyrofizioloji (L.S.Vıqotski, N.İ.Jinkin, R.Kayns, B.A.Artyomov, K.A.Roqova) [3], sırf linqvistik ( N.Xomski, V.F.Makey) və psixolinqvistik (A.A.Leontyev, P.Y.Qalperin, Q.List, H.Hans) modellər əsasında izah etmişlər. Bu modellərin hər birinin ayrı-ayrı təhlili göstərir ki, nitqin yaranma mərhələlərini müxtəıif alimlər həm kəmiyyət baxımından, həm də elmi baxımdan müxtəıif cür izah edir.

Nitq fəaliyyətinin I mərhələsi tələbatların, motivlərin və məqsədlərin mürəkkəb qarşılıqlı təsiri ilə müşayiət olunur. Məzmun, mahiyyət etibarilə bu mərhələ zəruri, məqsədli və motivasiyaedicidir. Funksiya etibarilə isə nitqə sövqedici, vadaredıcıdır. Nitq fəaliyyətinin II mərhələsi həm funksiya, həm də mexanizm baxımından təxminedici, araşdırıcı, tədqiqedicidir və ya analitik-sintetikdir. Məzmun baxımından ısə fəaliyyətin konkret planlaşdırılması mərhələsidir. Bu mərhələdə fəaliyyətin şərtləri, hansı şəraitdə baş verdiyi araşdırılır, predmet seçilir, fəaliyyət üsulları, vasitələri cəlb olunur. II mərhələ icra, reallaşma mərhələsidir. Bu mərhələ zahirən həm ifadə oluna, həm də olunmaya bilər [4, 11].

Nitqin yaranmasında olduğu kimi nitqin qavranması da əsasən 3 mərhələdən ibarətdir. I mərhələdə artikulemlərin yaratdığı eşitmə-əzələ duyğuları sintezləşir. II mərhələdə sözlər mənalarına görə anlayışlarla uyğunlaşır, yəni sözlər və onların əsasında duran anlayışlar arasında əlaqələr yaranır, cümlənin daxilindəki ayrı-ayrı sözlər arasında əlaqələr yaranır və sözlərin funksiyaları müəyyənləşir. III mərhələdə nitqin məzmunu aydınlaşır və nitqi ötürən şəxsin məqsədi üzə çıxır.

Şifahi nitqin digər psixoloji xüsusiyyəti isə onun müəyyən mexanizmlər əsasında yaranmasıdır. Şifahi nitqin tərkibində həm danışıq, həm də eşidib-anlama fəaliyyətləri birləşdiyi və eyni zamanda onlar sıx qarşiliqli əıaqədə olduqları üçün nitq mexanizmləri də müvafiq olaraq danışıq mexanizmləri, eşidib-anlama mexanizmləri və hər iki fəaliyyət növü üçün eyni dərəcədə vacib olan mexanuzmlərə bölünür. Məsələn, reproduksiya, kombinasiya, konstruksiya kimi nitqin verballaşma və səslənmə mexanizmləri əsasən danışıq ücün vacib olduqu təqdirdə, nitqin qavranılması mexanizmi olan dərketmə isə eşidib-anlama üçün vacibdir. Yaddaş və proqnozlaşdırma mexanizmləri isə həm danışıqda, həm də eşidib-anlamada eyni dərəcədə fəaliyyət göstərir.

Şifahi nitqin tədrisinin linqvodidaktik əsaslarına gəldikdə isə, bu məsələyə həm linqvistik, həm də metodiki ədəbiyyatda ( N.Z. Bakeyeva. N.A.Baskakov, Y.M.Vereşşaqin, V.Q.Kostomarov, P.V.Qurciv, O.D.Mitrofanova) böyük diqqətin ayrılmasına baxmayaraq onların vahid izahına və hamı tərəfindən yekdil qəbul olunan təsnifatına rast gəlinmir. Fikrimizcə, şifahi nitqin tədrisinin linqvodidaktik əsaslarına dil sisteminin müxtəlif kontekstlər, üslublar və ünsiyyət sferaları üzrə nitqdə funksionallaşarkən meydana çıxan fərqliliklər, dil hadisələrinin nitqdə işlənmə tezliyinin nəzərə alınması, qrammatik, leksik və fonetik xüsusiyyətlər, şifahi nitqin səs tərtibatı, məzmun strukturunun analizi, nitq materialının seçim prinsipləri daxildir.

Şifahi nitqin tədrisinin linqvodidaktik əsaslarından biri də nitq materialının seçimində müəyyən prinsiplərin nəzərə alınmasıdır. Araşdırdığımız elmi ədəbiyyatların analizi göstərir ki, şifahi nitqin tədrisi üçün material seçiminin prinsipləri müxtəlifdır və onların heç də hamısı müasir metodika elminin qoyduğu tələblərə uyğun gəlmir. Bu səbəbdən tədqiqat işinin yerinə yetirilməsi zamanı material seçiminə struktur yanaşma, transformasiya yanaşması, funksional yanaşma vasitəsilə tematik və situativ prinsiplərin şifahi nitqin tədrisi üçün nə dərəcədə yararlı olduğunu üzə cıxarmağa çalışacağıq.

## ƏDƏBİYYAT


1. Жинкин Н.И. Речь как проводник информации. М.: Наука, 1982, 238 с.
2. Бовтенко М.А. Компьютерная лингводидактика. Учебное пособие. М.: Флинта, 2005, 215 с.
3. Выготский Л.С., Жинкин Н.И., Кайнс Р., Артемов В.А., Рогов К.А. Обучение английскому языку в высших учебных заведениях, 150 с.

4. Axundova Q.V. Alman dilinin tədrisində yuxarı kurs tələbələrinin şifahi nitq bacarıqlarının təkmilləşdirilməsində informasiya kommunikasiya texnologiyalarından istifadə. Bakı, 2011, s.11. Avtoreferat, 20 s.

## РЕАЛИЗАЦИЯ ОБУЧЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА НА КОНТЕКСТЕ ЛИНГВО-ПСИХОЛОГИЧЕСКОГО ОБУЧЕНИЯ В ВЫСШИХ ВОЕННЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

**М.Ф.МАМЕДОВА**

**РЕЗЮМЕ**

Статья посвящена изучению лингво-дидактического обучения английскому языку курсантов высших военных учебных заведений на основе лингво-психологического изучения.

**Ключевые слова:** культурные ценности, военно-психологические качества, лингво-дидактические основы преподавания, средства общения, комбинация, репродукция, конструкция, трансформация, билингвизм

## REALIZATION OF TEACHING ENGLISH ON THE BASIS OF LINGUISTIC-PSYCHOLOGICAL CONTEXT AT HIGH MILITARY SCHOOLS

**M.F.MAMMADOVA**

**SUMMARY**

The article is devoted to the linguistic-didactical teaching of the English language to the cadets of the high military schools on the bases of linguistic-psychological learning.

**Key words:** Cultural values, military-psychological qualities, linguistic-didactical bases of teaching, means of communication, combination, reproduction, construction, transformation, bilinguism